# Bakı Avrasiya Universiteti

## STRATEJİ İNKİŞAF PROQRAMI

### (2023-2027-ci illər üçün)




Bakı Avrasiya Universitetinin Elmi Şurasının “27” yanvar 2023-cü il tarixli qərarı ilə (protokol № EŞ05-01/23) təsdiq edilmişdir.



**prof. Nazim Hüseynli**

**Bakı Avrasiya Universitetinin rektoru**

**Hörmətli əməkdaşlar, dəyərli tərəfdaşlar, əziz tələbələr!**

Bakı Avrasiya Universitetinin gələcək beş ilini formalaşdıracaq 2023–2027-ci illər üçün Strateji İnkişaf Proqramı milli təhsil sisteminin inkişaf məqsədləri, ölkəmizin sosial-iqtisadi inkişaf prioritetləri, əmək bazarının dəyişən tələbləri, həmçinin Universitetin 2018–2022-ci illər üçün Strateji İnkişaf Proqramının icrası nəticəsində əldə olunmuş nailiyyətlər nəzərə alınmaqla hazırlanmışdır.

Proqramın hazırlanması zamanı Universitetin fəaliyyət sahələri üzrə inkişaf dinamikası sistemli şəkildə təhlil edilmiş, mövcud zəif tərəflər, inkişaf imkanları və rəqabətqabiliyyətlilik səviyyəsi qiymətləndirilmişdir. Müəyyən edilmiş strateji prioritetlər növbəti beş ildə nail olmağı hədəflədiyimiz məqsədlər üçün yol xəritəsi olacaq, missiyamıza, vizyonumuza və dəyərlərimizə sadiq qalaraq Universitetimizin milli və beynəlxalq təhsil məkanında mövqeyini daha da gücləndirəcəkdir.

Bu proqramı təqdim etməklə biz daha dayanıqlı və uğurlu gələcəyə doğru ümumi strateji baxışımızı paylaşırıq.

Universitetimizin sayca ikinci Strateji İnkişaf Proqramının qəbul edilməsi ölkəmizin 2022–2030-cu illəri əhatə edən strateji inkişaf mərhələsinə daxil olduğu mühüm bir dövrə təsadüf edir. Bu mərhələdə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" təsdiq edilmiş, həmin prioritetlərə əsaslanan "2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" qəbul olunmuşdur. Ölkəmizin yeni inkişaf çağırışları Universitetin növbəti dövr üçün strateji məqsəd və hədəflərinin müəyyən edilməsində mühüm rol oynamışdır. Universitetimiz bu çağırışlara uyğun fəaliyyətləri hədəfləməklə ölkənin və cəmiyyətin inkişafına öz töhfəsini verməyə davam edəcəkdir.

1992-ci ildən bu günə qədər zəngin və şərəfli inkişaf yolu keçmiş Universitetimiz tələbələri, əməkdaşları, məzunları və tərəfdaşları ilə birlikdə davamlı olaraq böyümüş, təhsil keyfiyyəti ilə milli təhsil məkanında özünəməxsus yer qazanmışdır. Qarşıdakı beş ildə müəyyən etdiyimiz məqsədlərə doğru irəliləyərək cəmiyyətimizin, dövlətimizin və millətimizin inkişafına yönəlmiş fəaliyyətlərimizi daha böyük əzmlə davam etdirəcəyik.

Hədəflərimizin reallaşması Universitetimizi 2027-ci ilin sonunadək daha güclü və daha inamlı akademik inkişaf mərhələsinə çatdıracaqdır. Gələcək üçün prioritetlərimiz Universitetimizin qlobal dəyişikliklərə uyğunlaşmasını, müasir dövrün tələblərinə və gələcək çağırışlara cavab verən təhsil və tədqiqat mərkəzi kimi inkişafını nəzərdə tutur. Biz zəngin tariximizdən, möhkəm təhsil ənənələrimizdən, elm və təhsil mühitimizdən, idarəetmə təcrübəmizdən və kadr potensialımızdan aldığımız güclə Universitetimizin rəqabət qabiliyyətini artırmaq, innovativ və dayanıqlı inkişafını təmin etmək istiqamətində fəaliyyətimizi davam etdirəcəyik.

Təhsildə və elmdə keyfiyyətin yüksəldilməsi, sosial məsuliyyət prinsiplərinin gücləndirilməsi, kadr hazırlığının milli və beynəlxalq əmək bazarının tələblərinə uyğunlaşdırılması bu strateji proqramın əsas mahiyyətini təşkil edir. Bu prosesdə sizlərin - dəyərli professor-müəllim heyətimizin, bütün əməkdaşlarımızın, tələbələrimizin və tərəfdaşlarımızın səyləri bizim üçün çox qiymətlidir.

Biz sizlərlə birlikdə 2018-2022-ci illər üçün Strateji İnkişaf Proqramını həyata keçirərək mühüm uğurlara imza atdıq. Əminəm ki, çiyin-çiyinə çalışaraq bu strateji proqramın da uğurla icrasına nail olacaq, bununla da Universitetimizi milli və beynəlxalq səviyyədə daha da gücləndirəcəyik. Ümid edirəm ki, qarşıdakı dövr birlikdə böyüyəcəyimiz, təkmilləşəcəyimiz və yeni uğurlar qazanacağımız bir mərhələ olacaqdır. İnanıram ki, bütün əməkdaşlarımız proqramın hazırlanmasında olduğu kimi, onun həyata keçirilməsində də yüksək məsuliyyət və fəallıq göstərəcəklər.

Proqramın hazırlanması prosesində maraqlı tərəflərimizdən toplanan rəy, fikir və təkliflər bizim üçün dəyərli və faydalı olmuşdur. Bu töhfələr Universitetimizin gələcəyini istiqamətləndirəcək məqsədlərə çatma prosesinin planlaşdırılmasında mühüm rol oynamışdır.

2023–2027-ci illər üçün Strateji İnkişaf Proqramının uğurla həyata keçiriləcəyinə inanır, onun hazırlanmasında əməyi olan bütün əməkdaşlarımıza və dəstək göstərən bütün tərəfdaşlarımıza təşəkkürümü bildirirəm.

| № | MÜNDƏRİCAT | Səhifə |
|---|---|---|
| 1 | **Mövcud vəziyyətin təhlili və risklərin idarə edilməsi** | 4 |
| 1.1 | Əsas inkişaf istiqamətləri üzrə qazanılmış nailiyyətlər və mövcud vəziyyət | 4 |
| 1.2 | Güclü, Zəif, İmkanlar və Təhdidlərin (GZİT / SWOT) təhlili | 10 |
| 1.3 | Risklərin idarə edilməsi | 10 |
| 2 | **Missiya, Vizyon və Dəyərlər** | 10 |
| 3 | **Strateji istiqamətlər, məqsədlər və hədəflər** | 13 |
| 3.1 | **Rəqabətqabiliyyətli kadr hazırlığı** | 13 |
| 3.1.1 | Təhsil proqramlarının əmək bazarına uyğunluğunun və nəticəyönümlülüyünün təmin edilməsi | 13 |
| 3.1.2 | Tədris prosesinin yüksək səviyyəli elmi-pedaqoji kadrlarla təminatı | 13 |
| 3.1.3 | Təhsilalanların təhsil proqramları üzrə təlim nəticələrinin səriştəəsaslı qiymətləndirilməsi sisteminin qurulması və tətbiqi | 14 |
| 3.1.4 | **Təhsilalanların sosial inkişafının və rifahının dəstəklənməsi** | 14 |
| 3.2 | **Elmi-tədqiqat və innovasiya fəaliyyəti** | 14 |
| 3.2.1 | Tədqiqat və innovasiya infrastrukturunun gücləndirilməsi | 14 |
| 3.2.2 | Akademik heyətin tədqiqat bacarıqlarının artırılması | 14 |
| 3.2.3 | Elmi kadr hazırlığının keyfiyyətinin artırılması | 15 |
| 3.2.4 | Elmi fəaliyyətin beynəlmiləlləşməsi və nüfuzunun artırılması | 15 |
| 3.3 | **Universitetin beynəlmiləlləşməsi** | 16 |
| 3.3.1 | **Beynəlxalq səviyyəli əməkdaşlığın dəstəklənməsi** | 16 |
| 3.3.2 | Akademik mobillik proqramlarında iştirak səviyyəsinin artırılması | 16 |
| 3.3.3 | Əcnəbi tələbələrin cəlb olunması | 16 |
| 3.3.4 | Universitetin beynəlxalq reytinqinin yüksəldilməsi | 17 |
| 3.4 | **İdarəetmənin təkmilləşdirilməsi** | 17 |
| 3.4.1 | İdarəetmə mexanizminin təkmilləşdirilməsi, hesabatlılığın artırılması | 17 |
| 3.4.2 | İnsan resurslarının idarə edilməsinin müasirləşdirilməsi | 17 |
| 3.4.3 | Maliyyə resurslarının idarə edilməsinin optimallaşdırılması | 17 |
| 3.5 | **Maddi-texniki baza infrastrukturunun təkmilləşdirilməsi** | 17 |
| 3.5.1 | Tədris və xidmət infrastrukturunun standartlara uyğunlaşdırılması və yenilənməsi | 17 |
| 4 | **SİP-in icrası üzrə fəaliyyətlərin planlaşdırılması və resurs təminatı** | 18 |
| 4.1 | **SİP-in Strateji Hədəflər Xəritəsi və həyata keçirilməsi üzrə Fəaliyyət Planı** | 18 |
| 4.2 | SİP-in maliyyələşdirilməsi | 18 |
| 4.3 | SİP-in icrası üçün insan resursları təminatı | 18 |
| 5 | **SİP-in ölkənin milli prioritetlərinə, strateji çağırışlarına, sosial-iqtisadi inkişaf strategiyasına və qlobal meyllərə uyğunluğu** | 18 |
| 5.1 | SİP-in "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli prioritetlər"ə uyğunluğu | 18 |
| 5.2 | SİP-in Azərbaycan Respubilkasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasına uyğunluğu | 18 |
| 5.3 | SİP-in dayanıqlı inkişaf məqsədləri ilə uyğunluğu | 19 |
| 6 | **SİP-in icrasından gözlənilən nəticələr** | 20 |
| 7 | **SİP-in icrasına nəzarət və hesabatlılıq** | 21 |
| 8 | **Əlavələr** | |

# MÖVCUD VƏZİYYƏTİN TƏHLİLİ VƏ RİSKLƏRİN İDARƏ EDİLMƏSİ

## Əsas inkişaf istiqamətləri üzrə qazanılmış nailiyyətlər və mövcud vəziyyət

Bakı Avrasiya Universiteti Elmi Şurasının "29" dekabr 2017-ci il tarixli qərarı ilə (protokol № EŞ04-11/17) "Bakı Avrasiya Universitetinin Strateji İnkişaf Proqramı (2018-2022)" qəbul olunmuş, 6 strateji istiqamət üzrə hədəflər müəyyən edilmişdir. SİP üzrə planlaşdırılmış tədbirlərin 60 faizinin icrası tam başa çatmışdır, 30 faizi qismən icra edilmişdir. COVID-19 pandemiyası ilə əlaqədar iş rejimində dəyişikliklər SİP-in icrasına təsirsiz ötüşməmiş və planlaşdırılmış tədbirlərin 10 faizinin icrası mümkün olmamışdır.

SİP üzrə planlaşdırılmış srtateji hədəflərin reallaşdırılması nəticəsində Universitetin fəaliyyətində ciddi irəliləyişlərə nail olunmuşdur. Universitetin maliyyə dayanıqlığının artırılması, müasir infrastruktur quruculuğu, insan kapitalının davamlı inkişafı, təhsil, elm və beynəlmiləlləşmə fəaliyyət sahələrində müsbət dinamika əldə olunmuşdur.

Universitetin insan resurslarının kəmiyyət və keyfiyyət tərkibində mühüm dəyişikliklər baş vermişdir.

2018-ci ilin göstəricilərinə görə 1 oktyabr tarixinə Universitetin işçilərinin ümümi sayı 218 nəfər olmuşdur. O cümlədən, işçi sayında əsas heyət 147, kənardan dəvət olunan işçilər 71 nəfərdir. İşçi sayında elmi və elmi-pedaqoji kadrların sayı 151 nəfərdir, onlardan 82 nəfəri əsas iş yeri üzrə, 69 nəfəri kənardan dəvət olunanlardır. Ştatda olan professor-müəllim heyətinin 5 nəfəri elmlər doktoru, 17 nəfəri fəlsəfə doktoru, onlardan 4 nəfəri professor, 11 nəfəri dosentdir. Kənardan dəvət olunanlar nəzərə alınmaqla elmi dərəcəlilərin sayı 75 nəfər, o cümlədən onlardan 27 nəfəri elmlər doktoru, 48 nəfəri fəlsəfə doktoru olmuşdur. Elmi dərəcəlilərin elmi-pedaqoji kadrların ümumi sayında xüsusi çəkisi 50 % olmuşdur. Universitetdə çalışan əcnəbi professor-müəllim heyətinin sayı 1 nəfərdir.

2022-ci ilin 1 oktyabr tarixinə Universitetin işçilərinin ümumi sayı 272 nəfərdir. O cümlədən, işçi sayında əsas heyət 167, kənardan dəvət olunan işçilər 105 nəfərdir. İşçi sayında elmi və elmi-pedaqoji kadrların sayı 199 nəfərdir, onlardan 95 nəfəri əsas iş yeri üzrə, 104 nəfəri kənardan dəvət olunanlardır. Ştatda olan professor-müəllim heyətinin 3 nəfəri elmlər doktoru, 23 nəfəri fəlsəfə doktoru, o cümlədən, elmi dərəcəlilərdən 2 nəfəri professor, 10 nəfəri dosentdir. Kənardan dəvət olunanlar nəzərə alınmaqla elmi dərəcəlilərin sayı 86 nəfər, o cümlədən, onlardan 20 nəfəri elmlər doktoru, 66 nəfəri fəlsəfə doktorudur. Elmi dərəcəlilərin elmi-pedaqoji kadrların ümumi sayında xüsusi çəkisi 43 % təşkil edir. Universitetdə çalışan əcnəbi professor-müəllim heyətinin sayı 1 nəfərdir.

Beləliklə, 2018-ci ilə nisbətən elmi-pedaqoji kadrların sayı 1,3 dəfə, ştatda olanların sayı 1,3 dəfə artmışdır. Həmçinin, elmi dərəcəlilərin sayında artım müşahidə edilmişdir. 2018-ci ildə ştatda olan elmi dərəcəlilərin sayı 22 nəfər, 2022-ci ilin sonina 25 nəfərdən ibarət olmuşdur. Bu, yeni işə qəbul olunan işçilərdən əlavə, Universitetin ştatında olan pedaqoji kadrlardan elmi dərəcə alanların sayının artımı ilə bağlıdır. Eyni zamanda plan yerlərinin və faktiki qəbulun artması ilə əlaqədar kənardan dəvət olunanların sayı 1,5 dəfə artmışdır. Əcnəbi professor-müəllim heyətinin sayında dəyişiklik olmamışdır.






2022-ci ilin sonuna ali təhsilin bakalavriat səviyyəsində 14 ixtisas, 22 proqram, magistratura səviyyəsində 6 ixtisas və 18 ixtisaslaşma, o cümlədən 3 MBA proqramı üzrə mütəxəssis hazırlığı aparılır.

2018/2019-cu tədris ili ilə müqayisədə 2022/2023-cü tədris ilinin əvvəlinə tələbə qəbulu üzrə plan yerlərinin sayı, plan yerlərinin dolma faizi və dövlət sifarişində iştirak payı üzrə göstəricilərdə müsbət dinamika müşahidə olunmuşdur. Belə ki, bakalavriat səviyyəsində 2018/2019-cu tədris ilində plan yerlərinin sayı 680 (əyani: 630 və qiyabi: 50), faktiki qəbul 551 (əyani: 513 və qiyabi: 38) nəfər, plan yerlərinin dolma faizi 81 % olmuşdur. Dövlət sifarişi ilə qəbul olan olmamışdır. 2022/2023-cü tədris ilində plan yerlərinin ümumi sayı 960 (əyani: 870 və qiyabi:90), qəbul 801 (əyani:720 və qiyabi: 81) nəfər (83%) olub. 2018/2019-cu tədris ili ilə müqayisədə plan yerlərinin sayı təxminən 1,4 dəfə, qəbul olunanların sayı 1,5 dəfə, plan yerlərinin dolma faizi 2 % faiz artmışdır. Dövlət sifarişi ilə 9 nəfər qəbul olmuşdur.



Magistratura səviyyəsində 2018/2019-cu tədris ilində plan yerlərinin sayı 67 (əyani), faktiki qəbul 11 nəfər, plan yerlərinin dolma faizi 16 % olmuşdur. Dövlət sifarişi ilə qəbul olan olmamışdır. 2022/2023-cü tədris ilində plan yerlərinin ümumi sayı 92 (əyani), qəbul 58 nəfər (63%) olub, yəni 2018/2019-cu tədris ilinə nisbətən plan yerlərinin sayı təxminən 1,4 dəfə, qəbul olunanların sayı 5 dəfədən çox, plan yerlərinin dolma faizi 47 % faiz artmışdır. Dövlət sifarişi ilə qəbul olan olmamışdır.

2018-ci il üçün doktoranturaya 12 plan yerinə (əyani: 3, qiyabi: 9) cəmi 12 nəfər (əyani: 3, qiyabi: 9), dissertanturaya 9 plan yerinə 7 nəfər qəbul olunub, 2022-ci il üçün doktoranturaya 11 plan yerinə (əyani: 2, qiyabi: 9) cəmi 3 nəfər (əyani: 1, qiyabi: 2) qəbul olunub, dissertanturada 11 plan yerinə qəbul olunanların sayı 2 nəfər olub. Doktorantura və dissertanturaya qəbul göstəricilərində obyektiv səbəblərdən (xarici dil üzrə qəbul imtahan proqramına qoyulan tələblər) ümumən müsbət irəliləyiş müşahidə edilməmişdir. Müsbət haldır ki, Universitet artıq doktorantura səviyyəsində dövlət sifarişində iştirak edir.

### Doktorantura və dissertantura: 2018 və 2022-ci illərin müqayisəsi

| Göstərici | 2018 | 2022 (SABİT) |
|---|---|---|
| Doktorantura plan yeri | 11 | 11 |
| Doktoranturaya qəbul | 3 | 3 |
| Dissertantura plan yeri | 11 | 11 |
| Dissertanturaya qəbul | 2 | 2 |

Ümumi Vəziyyət

= Göstəricilər tamamilə sabit qalmışdır

Müsbət İnkişaf

Doktorantura səviyyəsində dövlət sifarişində iştirak müsbət inkişaf kimi qeyd edilməlidir.

**Analitik nəticə:** Strukturdakı tutum və qəbul rəqəmləri sabitdir, potensial artım üçün əlavə resursların cəlbi tələb olunur.

Bakalavriat səviyyəsində kadr hazırlığının strukturunda dəyişikliklər olmuşdur. Dövlət və bələdiyyə ixtisası üzrə kadr hazırlığına başlanılmış, qiyabi təhsilalma formasında hazırlıq aparılan ixtisasların sırası genişlənmişdir. Magistartura səviyyəsində MBA proqramı üzrə hazırlıq aparılan ixtisaslaşmaların sayı artmış, əmək bazarında daha çox ehtiyac duyulan ixtisaslaşmalar: maliyyə, mühasibat, audit sahələri üzrə kadr hazırlığı aparılmasına başlanmışdır.

Təhsil proqramlarının əmək bazarının tələblərinə fokuslanması kadr hazırlığının məzmununun yeni tələblərə uyğunlaşdırılması, təhsilalanlarda ixtisas biliklərinin qazanılması ilə yanaşı, yumşaq və sərt bacarıqların formalaşdırılmasını prioritetə çevirmişdir. Bununla bağlı olaraq təcrübənin təşkili və keçirilməsinə olan tələblər artırılmış və məzmun dəyişiklikləri aparılmışdır. Təcrübə bazalarının seçilməsinə tələblər artırılmışdır.

İnfrastrukturun inkişafı sahəsində müsbət nəticələr müşahidə olunmuşdur. Universitetin tələbə yataqxanası fəaliyyətə başlamış, kitabxana sahəsi genişlənmişdir. Auditoriyaların kompüter avadanlıqları ilə təminatına diqqət artırılmışdır.

Universitetin keyfiyyət idarəetmə mexanizmləri qurulmuş, keyfiyyət təminatı üzrə müstəqil struktur bölmə fəaliyyətə başlamış, siyasət və prosedurlar qəbul olunmuşdur.

2022-ci il üçün elmi-tədqiqat fəaliyyəti 2019-2022-ci illər üzrə təsdiq edilmiş elmi-tədqiqat planına uyğun olaraq həyata keçirilmişdir. 2022-ci ildə 15 problem, 39 mövzu üzrə 43 iş tamamlanaraq hesabat verilmişdir. Universitet əməkdaşlarının 13 monoqrafiyası, 2 dərs vəsaiti, 115 fənn proqramı və metodik vəsaiti, 91 məqaləsi (o cümlədən, respublikada 58, xaricdə 33) çap olunmuşdur. Əməkdaşlar 60 tezis və konfrans materialı ilə (o cümlədən respublikada 35, xaricdə 25) çıxış etmişlər. 2022-ci ildə Universitetdə 3 beynəlxalq konfrans və simpozium, 1 respublika səviyyəli konfrans və simpozium, 6 ali məktəbdaxili (o cümlədən 1 tələbə elmi konfransı) konfrans olmaqla 10 elmi tədbir keçirilmişdir. İmpakt-faktoru olan jurnallarda 2 məqalə nəşr edilmişdir. Alınmış nəticələr müxtəlif elmi, elmi-praktik konfranslarda müzakirə olunmuş, elmi jurnallarda və toplularda nəşr edilmişdir.

Universitet "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın icrasında iştirak edir. Hazırda Bakı Avrasiya Universiteti tərəfindən xaricdə təhsil almaq və tədqiqatını başa çatdırdıqdan sonra Universitetdə pedaqoji fəaliyyətə cəlb olunmasına razılıq verilmiş 6 nəfər proqram üzrə təhsilini davam etdirir.

2018-ci ilə nisbətən 2022-ci ildə elmi infrastrukturda ciddi dəyişiklik baş verməmiş, yeni tədqiqat mərkəzləri yaradılmamışdır.



Universitetin beynəlmiləlləşməsini təmin etmək məqsədilə son beş ildə dünyanın bir sıra ölkələrinin üniversitetləri və təhsil, elm və mədəniyyət sahəsində fəaliyyət göstərən təşkilatları ilə əlaqələr qurulmuş, ikitərəfli və çoxtərəfli əməkdaşlığa dair müqavilələr imzalanmışdır. Universitetlərlə əməkdaşlığın əsas istiqamətləri müəllim və tələbə mübadiləsi, birgə konfransların, simpoziumların təşkili və ortaq akademik proqramların həyata keçirilməsi olmuşdur.

Universitetlə Kral Abdulla bin Əbdüləziz adına Ərəb dilinə Xidmət üzrə Beynəlxalq Mərkəz arasında "Ərəbşünaslıq Mərkəzi"nin təsis edilməsi haqqında 06.02.2019-cu ildə imzalanmış müqaviləyə uyğun olaraq layihənin birinci mərhələsi (2019-2022-ci illər) uğurla başa çatmış və 2022-ci ilin sentyabr ayından layihənin növbəti ikincimərhələsinin icrasına başlanılmışdır. Tərəflər arasında bağlanmış müqaviləyə uyğun olaraq layihənin ikinci mərhələsi 5 illikdir (2022-2027-ci illər) və illik büdcə 100000 ABŞ dollarıdır. Layihə çərçivəsində hər il Azərbaycanın ali təhsil müəssisələrində ərəb dili üzrə təhsil alan 20 nəfər tələbənin təhsil haqqı Mərkəz tərəfindən qarşılanır və 120 nəfər tələbəyə ödənişsiz ərəb dili kursları təşkil olunur. Layihənin icrası müddətində 3 cildlik Azərbaycan-Ərəb dili lüğəti və ərəb dilindən iki kitab Azərbaycan dilinə tərcümə edilərək çap edilmişdir.

Universitetin idarəetməsinin rəqəmsal texnologiyalar üzərindən tam avtomatlaşdırılması və lokal/qlobal şəbəkə va mobil texnologiyalara inteqrasiya olunmuş elektron idarəetmə sisteminin yaradılması istiqamətində mühüm addımlar atılmışdır. 2022-ci ilin oktyabr ayında "TIM ACADEMY" MMC ilə "BAAU-Elektron Universitet" layihəsi üçün proqram təminatının yaradılması üzrə xidmətlərin göstərilməsi haqqında" müqavilə bağlanmışdır. Layihə: təhsil, elm, kadr, kargüzarlıq, kitabxana, maliyyə və mühasibatlıq olmaqla 6 modulu əhatə edir və 149000 (bir yüz qırx doqquz min) manat maliyyə dəyəri həcmindədir.

Universitetin əsas fəaliyyət sahələrində uğurlar qazanılsa da, müəyyən istiqamətlərdə qarşıya qoyulmuş vəzifələr reallaşdırılmamışdır. Universitetin tədris prosesində rəqəmsal texnologiyaların tətbiqi, akademik reytinqlərdə yer alması, beynəlxalq məlumat bazalarına çıxışının təmin edilməsi, kitabxana fondunun müasirləşdirilməsi və tədris tələblərinə cavab verən səviyyəyə çatdırılması yönündə müəyyən problemlər qalmaqdadır. Təhsil müddətində təhsilalanlara karyera planlaması sahəsində dəstək tədbirlərinin göstərilməsinə, bu istiqamətdə fəaliyyəti tənzimləyəcək struktur bölmənin yaradılmasına ciddi ehtiyac vardır.Təhsilalanlarda mənimsənilməsi vacib hesab edilən rəqəmsal bacarıqların formalaşdırılması prosesinə yenidən baxılmalıdır, texniki, texnoloji və innovasiya yönümlü ixtisasların əhatə dairəsinin genişləndirilməsi mümkün olmadığından hazırda bu istiqamətdə yalnız İnformasiya texnologiyaları sahəsində kadr hazırlığı aparılır.

Növbəti dövr üçün Universitetin strateji istiqamətləri və hədəfləri müəyyən olunarkən aşağıdakı faktorların nəzərə alınması mühüm əhəmiyyət kəsb edir:

- bundan əvvəlki dövr üçün Strateji İnkişaf Proqramında reallaşmayan vəzifələrin, əldə olunmayan hədəf göstəricilərinin Universitetin inkişafı baxımından zəruriliyi və yerinə yetirilməsinin vacibliyi;
- ölkəmizin postpandemiya və postkonflikt dövrü üçün üzləşdiyi qlobal meyllər və çağırışlar, bu meyl və çağırışlara cavab vermək imkanları. Ölkəmizin tarixi coğrafi sərhədləri bərpa edilmiş, dövlət suverenliyi və milli təhlükəsizliyi möhkəmləndirilmiş, daxili ictimai-siyasi sabitlik və ictimai konsolidasiya təmin edilmişdir. Ölkənin 10 illik sosial-iqtisadi inkişaf nailiyyətləri beş fundamental nəticə — qalib dövlət, beynəlxalq nüfuz, təhsilli cəmiyyət, böyük iqtisadi potensial və yüksələn rifah ilə xarakterizə edilir. Ölkəmiz keyfiyyətcə yeni olan və 2022–2030-cu illəri əhatə edən strateji inkişaf mərhələsinə daxil olmuşdur.

Bu mərhələdə dövlətimiz yeni nəsil struktur və institusional islahatlar vasitəsilə iqtisadi artımın müasir və dayanıqlı mənbələrinin hərəkətə gətirilməsi, milli iqtisadiyyatın innovasiya yönümünün və maliyyə dayanıqlığının daha da gücləndirilməsi, ölkə iqtisadiyyatının qlobal dəyər zəncirinə səmərəli inteqrasiyası yolu ilə öz qüdrətini daha da artırmaqla, yüksək rifah cəmiyyətinin qurulması istiqamətində yeni hədəfləri gerçəkləşdirəcəkdir.

- "Azərbaycan–2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" təsdiq olunmuş və bu prioritetlərə söykənən "2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" qəbul edilmişdir. Bu Strategiyanın reallaşması 2026-cı ilin sonuna ölkə iqtisadiyyatının simasında böyük dəyişikliklərə səbəb olacaq, iqtisadi artım tamamilə yeni keyfiyyət amilləri bazasında formalaşacaq, xüsusilə prioritet sahələrdə artım templəri sürətlənəcək, iqtisadiyyatın və məşğulluğun dayanıqlığı daha da güclənəcəkdir. İnsan kapitalının davamlı inkişafı və yeni keyfiyyətə transformasiyası mühiti daha da təkmilləşəcək, milli iqtisadiyyatda innovasiyaların sürətlə mənimsənilməsi üçün zəruri ekosistem formalaşacaq, ölkənin yaşıl enerji məkanına çevrilməsi və ətraf mühitin sağlamlaşması prosesləri sürətlənəcəkdir. Milli iqtisadiyyatımız yüksəkgəlirli ölkələr sırasına daxil olmağı hədəfləyir.
- rəqəmsal texnologiyaların tətbiqi və iqtisadiyyatın inkişaf perspektivləri yüksək bilik və bacarıqları olan insan resurslarına tələbi artırır. Bu tələbatın təmin olunması müasir iqtisadiyyatın ehtiyaclarına cavab verən təhsilin yeni məzmununun formalaşmasını və mövcud insan resurslarının yenidən kvalifikasiyası üçün ömürboyu təhsil imkanlarının yaradılmasını strateji prioritet olaraq müəyyən edir.
- aparıcı iqtisadi sahələrdə əqli fəaliyyətin nəticələrinin təşviqi, innovasiya və yaradıcılığa dəstək genişlənir. Əqli mülkiyyətə əsaslanan və texnologiya, dizayn və brendlər formasında olan qeyri-maddi kapitalın dəyər zəncirində davamlı artmasında əqli fəaliyyət nəticələrinin, innovasiya və yaradıcılığın təşviqi vacib amil rolunu oynayır.

Ölkənin 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf çağırışları Universitetin strateji məqsəd və hədəflərinin müəyyən edilməsində həlledici rol oynayır, Universitet bu çağırışlara uyğun fəaliyyətləri hədəfləməklə, ölkənin və cəmiyyətin inkişafına öz töhfəsini verəcəkdir.

# 1.2 Güclü, Zəif, İmkanlar və Təhdidlərin (GZİT / SWOT) təhlili

## UNİVERSİTETİN SWOT TƏHLİLİ

### S – GÜCLÜ TƏRƏFLƏR (STRENGTHS)

1. Təhsilin məzmununun mütəmadi olarag yenilənməsi və keyfiyyətli təhsil
2. Akademik azadlıq, təşəbbüslərin dəstəklənməsini və nəticələrə görə cavabdehliyi təmin edən təhsil mühiti
3. Akademik nüfuz və müsbət imic
4. Dayanıqlı və çevik idarəetmə sistemi, yeniliklərə açıq idarəetmə heyəti
5. Təhsil proqramlarının abituriyentlər üçün cəlbediciliyi
6. Dövlət sifarişi ilə kadr hazırlığında iştirak
7. Tədris, kadr və təcrübə mübadiləsi sahəsində beynəlxalq əməkdaşlıq əlaqələrinin genişliyi və səmərəliliyi
8. Dayanıqlı akademik ənənələr
9. Universitetin Boloniya prosesinin əsas parametrlərinə uyğun faaliyyət göstərməsi
10. Tədris resurslarının idarəetmə və monitorinq sisteminin inkişafı
11. Müasir maddi-texniki baza təminatı
12. Təhsil xidmətlərinə görə təhsil haqqı məbləğinin sosial statusundan asılı olmayaraq hər kəs üçün uyğunluğu
13. Professor-müəllim heyətinin və işçilərin davamlı peşəkar yüksəlişi üçün şəraitin yaradılması

### W – ZƏİF TƏRƏFLƏR (WEAKNESSES)

1. Təhsil, elm və istehsalın inteqrasiyasının lazımi səviyyədə olmaması
2. Universitet elminin kommersiyalaşdırılmaması
3. PMH-ın beynəlxalq proqramlarda və grant layihələrində iştirak səviyyəsinin aşağı olması
4. İşəgötürənlərin təhsil proqramlarının layihələndirilməsində və həyata keçirilməsində iştirak səviyyəsinin aşağı olması
5. Xarici təhsil müəssisələri ilə ikili diplom proqramı üzrə əlaqənin zəif olması
6. Ştatda olan PMH sayının az olması, elmi dərəcə və elmi adı olan ştatlı PMH xüsusi çəkisinin qənaətbəxş olmaması
7. PMH-ın xarici dil biliklərinin aşağı səviyyədə olması (bu sahə üzrə çalışanlar istisna edilməklə)
8. PMH əməyinin keyfiyyətinin qiymətləndirilməsi və qazanılmış yüksək nəticələrə görə maddi həvəsləndirmə sisteminin tam qərarlaşmaması
9. PMH üzrə nəşr göstəricilərinin, xüsusən beynəlxalq xülasələndirmə indekslərinə çıxışın qənaətbəxş olmaması
10. Məzunlarla əlaqənin zəifliyi
11. Əmək bazarı araşdırmalarının lazımi səviyyədə aparılmaması, marketinq strategiyasının qərarlaşmaması
12. Universitetin maliyyələşmə mənbələrinin məhdudluğu, gəlirlərin yalnız təhsil haqqı hesabına formalaşması

### O – İMKANLAR (OPPORTUNITIES)

1. Ali təhsil müəssisələrinin faaliyyətinə dövlət təminatları və prioritetlərinin mövcudluğu
2. Ali təhsilə tələbat
3. Ölkənin sənaye inkişaının doğurduğu müasir çağırışlar
4. Təhsilalanların və təhsilverənlərin akademik mobilliyinin inkişafı üçün şəraitin mövcudluğu
5. Maliyyə, informasiya, fiziki və əmək resurslarından istifadənin səmərəliliyinin yüksədilməsi üçün müasir menecment metodlarının mövcudluğu
6. Ümumdünya təhsil məkanında ali təhsil müəssisələrinin və elmi təşkilatların əməkdaşlığının inkişaf etməsinə imkan verən inteqrasiya proseslərinin genişlənməsi

### T – TƏHDİDLƏR (THREATS)

1. Tələbə qəbulu üzrə ödənişli plan yerlərinin müəyyənləşdirilməsində müstəqilliyin olmaması
2. Tələbə qəbulunun aparılmasında müstəqilliyin olmaması
3. Doktorantura və dissertanturada yekun attestasiyanın keçirilməsində müstəqilliyin olmaması
4. Maliyyə-vergi qanunvericiliyində dəyişikliklər

# 1.3. Risklərin idarə edilməsi

Universitet strateji hədəflərinə çatma prosesində üzləşə biləcəyi müxtəlif risklər (əməliyyat, maliyyə, strateji, kənar risklər) proqnozlaşdırılır və Strateji İnkişaf Proqramının (SİP) Strateji Hədəflər Xəritəsinə daxil edilir. Risklərin effektiv şəkildə müəyyən edilməsi, ölçülməsi və qiymətləndirilməsi, minimuma endirilməsi və dayanıqlığının təmin olunması risklərin idarə edilməsi sisteminin qurulmasına tələbat doğurur. Bununla əlaqədar olaraq Universitetin "Risklərin idarə edilməsi siyasəti" müəyyən olunur. Bu siyasət bütün planlaşdırma, idarəetmə və kommunikasiya proseslərinə tətbiq olunmaqla strateji qərarları dəstəkləmək, biznes proseslərinin davamlılığını təmin etmək, maliyyə itkilərini minimuma endirmək və məqsədlərə çatmağa mane olan hadisələrin qarşısını almaq imkanı verir.

# 2. MİSSİYA, VİZYON VƏ DƏYƏRLƏR

## MİSSİYA

**Missiyamız** milli və ümumbəşəri dəyərlərə söykənərək müasir dövrün çağırışlarına və əmək bazarının tələblərinə cavab verən biliklərə, bacarıq və səriştələrə malik, müstəqil və yaradıcı düşünən, müasir təfəkkürlü mütəxəssis, rəqabətqabliyyətli insan kapitalı formalaşdırmaqdır.

# STRATEJİ BAXIŞ (VİZYON)

Strateji baxışımız kadr hazırlığının keyfiyyətini əmək bazarının və beynəlxalq standartların tələblərinə uyğun artırmaqla ali təhsil məkanında Universitetin rəqabətqabiliyyətliliyini təmin etməkdir.

Strateji baxış Universitet üçün 4 strateji çərçivəni müəyyən edir: keyfiyyətli təhsil mühiti, keyfiyyətli idarəetmə, keyfiyyətli məhsul və keyfiyyətli (etibarlı) tərəfdaş.

**Keyfiyyətli təhsil mühiti** - təhsil proqramlarının məzmunu və həyata keçirilməsi şərtlərinin (tədris, tədris-metodik, elmi-metodik və s.), kadr təminatı, infrastruktur və resurs təminatının müasir standartlara uyğunluğunun təzahürü kimi çıxış edəcəkdir.

**Keyfiyyətli idarəetmə** - təhsil mühitinin keyfiyyətini, təhsil prosesinin iştirakçılarının tələbatlarının ödənilməsini, gender bərabərliyinin və inklüzivliyin qorunmasını təmin edən yeni idarəetmə texnologiya və alətlərinin tətbiqi ilə nəticəyönümlü şəffaf idarəetmə sistemini, korporativ mədəniyyət və korporativ sosial məsuliyyət çərçivəsini ehtiva edir.

**Keyfiyyətli məhsul** - tədris prosesinə münasibətdə müasir dövrün çağırışlarına və əmək bazarının tələblərinə cavab verən biliklərə, bacarıq və səriştələrə malik, müasir təfəkkürlü, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq vətəndaş və şəxsiyyət kimi formalaşmış məzun, elmi fəaliyyətə münasibətdə ölkəmizin ehtiyaclarına uyğun olaraq keyfiyyətli elmi məhsulu ehtiva edəcəkdir.

**Keyfiyyətli (etibarlı) tərəfdaş** - maraqlı tərəflərlə (şagirdlər, abituriyentlər, təhsilalanlar, valideynlər, işəgötürənlər və s.) münasibətlərdə maraqların qarşılıqlı qorunmasını, qarşılıqlı inam və etimad mühitinin formalaşdırılmasını və etibarlı tərəfdaşlıq əlaqələrini dəstəkləyir.

# DƏYƏRLƏR

**Millilik və dünyəvilik**. Milli və ümumbəşəri dəyərlərə sadiqlik və onların qorunması fəaliyyətimizin əsasını təşkil edir.

**Humanistlik**. Milli və ümumbəşəri dəyərlərə, şəxsiyyətin azad inkişafına, insan hüquq və azadlıqlarına, ətraf mühitə və insanlara qayğı və hörmətlə yanaşırıq.

**Multukulturalizm və tolerantlıq.** Mədəni müxtəlifliklərin qorunmasına, digər inanc və əqidələrə dözümlü yanaşmaya daim sadiqik.

**Şəxsiyyətyönümlülük.** Universitetin başlıca dəyəri onun təhsilalanları və əməkdaşlarıdır. Şəxsiyyətə, onun maraqlarına hörmət, hər kəsin yaradıcı və elmi potensialının inkişafına dəstək fəaliyyətimizin əsasını təşkil edir.

**Səriştə və bacarıqyönümlülük.** Əmək bazarının tələblərinə uyğun müasir səriştə və bacarıqları formalaşdırmaq təhsil proqramlarımızın əsas məqsədidir.

**Keyfiyyətlilik.** Ölkədə qəbul olunan dövlət təhsil standartlarına və normalarına cavab verən, beynəlxalq və ümumavropa təhsil sisteminin prinsiplərinə uyğunlaşmış, cəmiyyətin və dövlətin maraqlarına uyğun yüksək keyfiyyətli kadr hazırlığını təmin etmək prioritetimizdir.

**Məsuliyyət.** Cəmiyyətin və dövlətin Universitet qarşısında qoyduğu vəzifələrin yerinə yetirilməsinin səmərəliliyinə, təhsil xidmətləri istehlakçılarının ehtiyaclarının keyfiyyətli təminatına məsuliyyət daşıyırıq.

**Demokratiklik.** Təhsilalanların azad düşüncə ruhunda tərbiyə edilməsinə, təhsilverənlərin akademik azadlığına önəm veririk.

**İnteqrasiya.** Təhsilin dünya təhsil sisteminə uyğunlaşması və qovuşması əsasında inkişafına önəm veririk.

**Şəffaflıq.** Universitetin bütün növ fəaliyyətlərində qərar qəbuletmə proseslərinin şəffaflığı, qərarların və məlumatların açıq və dürüst yanaşma ilə maraqlı tərəflərə əlçatanlığı təmin edilir, bununla da,qarşılıqlı etimadın qurulması və hesabatlılığın artırılmasına nail olunur.

Tələbəyönümlülük.Universitetin bütün fəaliyyətlərinin mərkəzində tələbələrin inkişafı, rifahı və uğuru durur, Universitet onları fərdiləşdirir və dəstəkləyir.

**Dayanıqlılıq və davamlı inkişaf.** Universitet gələcək nəsillərin rifahı naminə bütün növ fəaliyyətlərində ətraf mühitə hörmətlə yanaşma, resurslardan səmərəli istifadə və sosial mühit-ətraf mühit-iqtisadi tarazlıq vəhdətindən çıxış edir və davamlılığı strateji prioritetə çevirmişdir.

**İnkluzivlik.** Təhsil prosesində bütün təhsilalanların, xüsusilə sağlamlıq imkanları məhdud olanlarınfərdi fərqlərinə hörmətlə yanaşır, bərabər hüquqlarla iştirakını dəstəkləyirik.

# 3.STRATEJİ İSTİQAMƏTLƏR, MƏQSƏDLƏR VƏ HƏDƏFLƏR

Milli təhsil sisteminin inkişaf məqsədləri, ölkənin sənaye inkişafı, Universitetin 2018-2022-ci illər üçün Strateji İnkişaf Proqramının icra vəziyyəti, GZİT (SWOT) təhlili əsasında aşkar edilmiş zəif tərəflər, fəaliyyət sahələri üzrə xarici faktorların təsiri və inkişaf imkanları, rəqabətqabiliyyətlilik səviyyəsi nəzərə alınmaqla aşağıdakı prioritet fəaliyyət istiqamətləri müəyyən edilir.

## 3.1. Rəqabətqabiliyyətli kadr hazırlığı

### Məqsəd 3.1.1.Təhsil proqramlarının əmək bazarına uyğunluğunun və nəticəyönümlülüyünün təmin edilməsi

## Hədəflər:

**H1.1.1**-Təhsil proqramlarının məzmununun və təlim nəticələrinin peşə və kvalifikasiya standartlarına uyğunlaşdırılması, işəgötürənlərin prosesə cəlb edilməsi

**H1.1.2**-Tədris prosesinin təlim nəticələrinə əsaslanan yanaşma əsasında yenidən qurulması, təlim texnologiyaları və tədris metodlarının müasirləşdirilməsi

**H1.1.3**- Kadr hazırlığı strukturunun təkmilləşdirilməsi

**H1.1.4**- Karyera xidmətlərinin və peşəyönümü fəaliyyətinin təkmilləşdirilməsi

**H1.1.5**- Tələbə cəlbi və qəbulun keyfiyyətinin artırılması

### Məqsəd 3.1.2. Tədris prosesinin yüksək səviyyəli elmi-pedaqoji kadrlarla təminatı

## Hədəflər:

**H1.2.1**- Akademik heyətin müsabiqə yolu ilə işə qəbulu və yüksəlişi üzrə qaydaların yenilənməsi və proseslərin şəffaflığının təmin edilməsi

**H1.2.2**-Akademik heyətin kəmiyyət və keyfiyyət tərkibinin optimallaşdırılması və kadr təminatının gücləndirilməsi

**H1.2.3**-Professor-müəllim heyətinin peşəkarlıq səviyyəsinin artırılması üçün peşəkar inkişaf proqramlarına cəlb edilməsi

**H1.2.4**-Akademik heyətin fəaliyyətinin stimullaşdırılması üçün RQS (Reytinq qiymətləndirmə sistemi) və reytinq əsaslı differensial əmək haqqı sisteminin tətbiqi

### Məqsəd 3.1.3. Təhsilalanların təhsil proqramları üzrə təlim nəticələrinin səriştəəsaslı qiymətləndirilməsi sisteminin qurulması və tətbiqi

## Hədəflər:

**H1.3.1**-Təlim nəticələrinin səriştəəsaslı qiymətləndirilməsi üzrə universitetdaxili standartların və qiymətləndirmə mexanizmlərinin tətbiqi

**H1.3.2**-İşəgötürənlərin iştirakı ilə real tapşırıq/situasiya əsaslı qiymətləndirmə mexanizmlərinin tətbiqi

### Məqsəd 3.1.4. Təhsilalanların sosial inkişafının və rifahının dəstəklənməsi

## Hədəflər:

**H1.4.1**-Milli-mənəvi dəyərlər üzrə tərbiyəvi-maarifləndirici işin sistemləşdirilməsi və tələbə iştirakının artırılması

**H1.4.2**-Tələbə rifahı, təhlükəsizlik və inklüzivlik üzrə dəstək xidmətlərinin inkişaf etdirilməsi

**H1.4.3**-Sosial dəstək mexanizmlərinin əlçatanlığının və effektivliyinin artırılması

# 3.2. Elmi-tədqiqat və innovasiya fəaliyyəti

### Məqsəd 3.2.1. Tədqiqat və innovasiya infrastrukturunun gücləndirilməsi

## Hədəflər:

**H2.1.1**-Elmi-tədqiqat mərkəzlərinin inkişafı və yeni mərkəzlərin yaradılması

**H2.1.2**-Tədqiqatın maliyyələşdirilməsi mexanizmlərinin təkmilləşdirilməsi və daxili maliyyə alətlərinin gücləndirilməsi

**H2.1.3**-Tədqiqatların genişləndirilməsi və layihələrdə iştirak

**H2.1.4**-İnnovasiya və startap ekosisteminin formalaşdırılması

### Məqsəd 3.2.2. Akademik heyətin tədqiqat bacarıqlarının artırılması

## Hədəflər:

**H2.2.1**-Akademik yazı, metodologiya və bibliometriya üzrə səriştələrin artırılması

**H2.2.2**-Nəşr keyfiyyəti və məhsuldarlığının artırılması üçün dəstək və stimullaşdırma mexanizmlərinin qurulması

**H2.2.3**-Akademik dürüstlük və antiplagiat mədəniyyətinin gücləndirilməsi

## Məqsəd 3.2.3. Elmi kadr hazırlığının keyfiyyətinin artırılması

## Hədəflər:

**H2.3.1**-Doktorantura və magistraturada tədqiqat mühitinin gücləndirilməsi və tədqiqat işlərinin keyfiyyətinin artırılması

**H2.3.2**-Tədqiqat prioritetlərində beynəlxalq səviyyəyə uyğunluğu təmin etmək

## Məqsəd 3.2.4. Elmi fəaliyyətin beynəlmiləlləşməsi və nüfuzunun artırılması

## Hədəflər:

**H2.4.1**-Xarici elmi tədqiqat mərkəzləri ilə strateji tədqiqat əməkdaşlığının genişləndirilməsi və effektivliyinin artırılması

**H2.4.2**-Birgə beynəlxalq tədqiqat layihələri və birgə nəşrlər üzrə əməkdaşlığın təşviqi və dəstəklənməsi

**H2.4.3**-Beynəlxalq elmi konfransların və elmi tədbirlərin təşkili və keçirilməsinin genişləndirilməsi



# 3.3.Universitetin beynəlmiləlləşməsi

## Məqsəd 3.3.1: Beynəlxalq səviyyəli əməkdaşlığın genişləndirilməsi

**H3.1.1**-Yeni beynəlxalq tərəfdaşlıqların qurulması

**H3.1.2**-Beynəlxalq ikili diplom proqramlarının təşkili və davamlı icrası

**H3.1.3**-Beynəlxalq təhsil təşkilatlarında institusional təmsilçiliyin gücləndirilməsi

**H3.1.4**-Beynəlxalq qrant layihələrində iştirakın artırılması və təşviqi

## Məqsəd 3.3.2: Akademik mobillik proqramlarında iştirak səviyyəsinin artırılması

**H3.2.1**-Akademik mobillik üzrə tərəfdaşlıq portfelinin genişləndirilməsi (Erasmus+ və başqaları)

**H3.2.2**-Akademik mobillik üzrə proses və dəstək mexanizmlərinin gücləndirilməsi

## Məqsəd 3.3.3: Əcnəbi tələbələrin cəlb olunması

## Hədəflər:

**H3.3.1**-Əcnəbi tələbə qəbulunun artırılması və coğrafi əhatənin genişləndirilməsi

**H3.3.2**-Əcnəbi tələbələr üçün akademik təklifin genişləndirilməsi və dəstək xidmətinin təkmilləşdirilməsi



### Məqsəd 3.3.4: Universitetin beynəlxalq reytinqinin yüksəldilməsi

## Hədəflər:

**H3.4.1**-Seçilmiş beynəlxalq reytinqlərdə yer tutmaq və mövqeni yaxşılaşdırmaq
**H3.4.2**-Reytinq meyarlarına təsir edən indikatorların gücləndirilməsi

## 3.4. İdarəetmənin təkmilləşdirilməsi

### Məqsəd 3.4.1: İdarəetmə mexanizminin təkmilləşdirilməsi, hesabatlılığın artırılması

**H4.1.1**-Təşkilati strukturun, səlahiyyət bölgüsünün və əsas idarəetmə proseslərinin optimallaşdırılması və standartlaşdırılması
**H4.1.2**-İdarəetmənin rəqəmsallaşdırılması
**H4.1.3**-İdarəetmə sisteminin Beynəlxalq Standartlaşdırma Təşkilatının (İSO) standartlarının tələblərinə uyğunlaşdırılması (ISO 9001 və ISO 21001)

### Məqsəd 3.4.2: İnsan resurslarının idarə edilməsinin müasirləşdirilməsi

## Hədəflər:

**H4.2.1**-İnsan resursları siyasətinin yenilənməsi və kadr planlama–işə qəbul–karyera inkişafı mexanizmlərinin sistemləşdirilməsi
**H4.2.2**- Perfomans idarəetmə sisteminin tətbiqi

### Məqsəd 3.4.3: Maliyyə resurslarının idarə edilməsinin optimallaşdırılması

## Hədəflər:

**H4.3.1**- Maliyyələşmə mənbələrinin genişləndirilməsi, maliyyə dayanıqlığının artırılması
**H4.3.2**- Maliyyə ehtiyatlarından istifadənin səmərəliliyinin artırılması, müasir menecment yanaşmalarının tətbiqi

## 3.5. Maddi-texniki baza infrastrukturunun təkmilləşdirilməsi

### Məqsəd 3.5.1: Tədris və xidmət infrastrukturunun standartlara uyğunlaşdırılması və yenilənməsi

## Hədəflər:

**H4.5.1**-Tədris mühitinin və kitabxana–informasiya resurslarının normativ tələblərə uyğunlaşdırılması və funksionallığının artırılması
**H4.5.2**- Sosial-məişət təyinatlı infrastrukturun inkişafı

# 4.SİP-in icrası üzrə fəaliyyətlərin planlaşdırılması və resurs təminatı

## 4.1. SİP-in Strateji Hədəflər Xəritəsi və həyata keçirilməsi üzrə Fəaliyyət Planı

SİP-in həyata keçirilməsi üçün Strateji Hədəflər Xəritəsi müəyyənləşdirilir. Fəaliyyətlərin icrası üzrə qısa və ortamüddətli Fəaliyyət Planları müəyyən edilir. Fəaliyyət planları aşağıdakı müddətlər üzrə tərtib edilir:

Qısa müddətli dövr: 2023

Orta müddətli dövr: 2024-2027

Strateji Hədəflər Xəritəsi və Fəaliyyət Planları SİP-ə əlavə edilir.

## 4.2. SİP-in maliyyələşdirilməsi

SİP-in maliyyələşdirilməsi Universitetin maliyyə vəsaiti hesabına həyata keçiriləcəkdir. SİP-in həyata keçirilməsi üzrə maliyyə təminatı strateji istiqamətlər və hədəflər üzrə müəyyənləşdirilir və SİP-in Strateji Hədəflər Xəritəsində əksini tapır. SİP üzrə xərclər smetası bu təminat həddi nəzərə alınmaqla təsdiq edilir və maliyyə vəsaiti Universitetin büdcə planlamasında nəzərə alınır. SİP-ə icra müddətində milli və qlobal çağırışlarla əlaqədar yeni strateji istiqamət və hədəflər əlavə olunduqda fəaliyyətlərin genişlənməsi ilə əlaqədar xərclər smetasına yenidən baxılacaqdır.
Maliyyə vəsaitinin xərc maddələri üzrə istifadəsinə nəzarət SİP üzrə fəaliyyətin auditi, yarımillik və illik hesabatların təhlili yolu ilə aparılacaqdır.

## 4.3. SİP-in icrası üçün insan resursları təminatı

SİP-in həyata keçirilməsi üçün tələb olunan insan resursları təminatı SİP-in Strateji Hədəflər Xəritəsində hər bir hədəf üzrə ayrıca müəyyənləşdirilir. Hədəflərin icrası üçün məsul struktur bölmələr (məsul şəxslər) təyin edilir və icra üzrə hesabatlılıq təmin edilir.

# 5. SİP-in ölkənin milli prioritetlərinə, strateji çağırışlarına, sosial-iqtisadi inkişaf strategiyasına və qlobal meyllərə uyğunluğu

## 5.1. SİP-in "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli prioritetlər"ə uyğunluğu

SİP-in strateji məqsəd və hədəfləri "Qüdrətli dövlət və yüksək rifah cəmiyyəti"nin qurulmasına hədəflənmiş aşağıdakı 5 Milli Prioritetin reallaşmasından irəli gələn vəzifələri nəzərə almaqla müəyyən edilmişdir.

- Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat
- Dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət
- Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı
- İşğaldan azad olunmuş ərazilərə böyük qayıdış
- Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi

SİP-in Milli Prioritetlərə uyğunluq cədvəli SİP-ə əlavə edilir.

## 5.2. SİP-də müəyyən edilən stratateji hədəflərin "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"na uyğunluğu

SİP-in strateji hədəfləri "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın reallaşmasından irəli gələn vəzifələri nəzərə almaqla müəyyən edilmişdir.
SİP-in "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"na uyğunluq cədvəli SİP-ə əlavə edilir.

## 5.3. SİP-in dayanıqlı inkişaf məqsədləri ilə uyğunluğu

SİP Birləşmiş Millətlər Təşkilatının (BMT) Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) altməqsədləri ilə sıx əlaqələndirlmişdir. Belə ki, Dayanıqlı İnkişaf Məqsədlərinin aşağıda qeyd edilən 10 altməqsədi SİP-in strateji istiqamət və hədəflərində əksini tapmışdır:

**Məqsəd 1:** Yoxsulluğa son

**Məqsəd 3:** Sağlam həyat və rifah

**Məqsəd 4:** Keyfiyyətli təhsil

**Məqsəd 5:** Gender bərabərliyi

**Məqsəd 6:** Təmiz su və sanitariya

**Məqsəd 7:** Əlçatan və təmiz enerji

**Məqsəd 8:** Layiqli əmək və iqtisadi artım

**Məqsəd 10:** Bərabərsizliyin azaldılması

**Məqsəd 11:** Dayanıqlı şəhərlər və icmalar

**Məqsəd 17:** Məqsədlər üçün tərəfdaşlıq

SİP-in Dayanıqlı İnkişaf Məqsədlərinə uyğunluq cədvəli SİP-ə əlavə edilir.



# 6. SİP-in icrasından gözlənilən nəticələr

**SİP-in icrasından aşağıdakı nəticələrin əldə olunması gözlənilir:**

- ölkənin inkişaf prioritetlərinə uyğun olaraq müasir standartlar səviyyəsində yüksəkixtisaslı kadr hazırlığına nail olunması;
- ölkənin əmək bazarının tələbatı əsasında müəyyən olunmuş peşə və ixtisaslar üzrə yüksəkixtisaslı kadr potensialının formalaşdırılmasında iştirak;
- Universitetin ölkə və beynəlxalq təhsil məkanında dayanıqlı mövqeyinin formalaşması;
- Universitet təhsil proqramlarının cəlbediciliyinin daha da yüksəlməsi;
- Universitetin beynəlxalq reytinqinin yüksəlməsi;
- ölkədə ehtiyac duyulan ixtisaslar üzrə nüfuzlu xarici ölkə ali təhsil müəssisələri ilə birgə beynəlxalq ikili diplom proqramlarının təşkili;
- əcnəbi professor-müəllim heyətinin əmək fəaliyyətinə cəlb edilməsi, təhsil proqramlarının beynəlxalq akkreditasiyasına nail olunması;
- doktorantura səviyyəsi üzrə xaricdə təhsil almış şəxslərin əldə etdikləri beynəlxalq təcrübənin tədris və elmi fəaliyyət proseslərinə tətbiqi;
- yerli və əcnəbi professor-müəllim heyətinin iştirakı ilə qrant əsaslı elmi-tədqiqat proqramlarının həyata keçirilməsi;
- rəqəmsal texnologiyaların tətbiqi ilə müasir iqtisadiyyatın ehtiyaclarına cavab verən təhsilin yeni məzmununun formalaşması və mövcud insan resurslarının yenidən kvalifikasiyası üçün ömürboyu təhsil imkanlarının yaradılması;
- əqli fəaliyyət nəticələrinin, innovasiya və yaradıcılığın təşviqi yolu ilə əqli mülkiyyətə əsaslanan və texnologiya, dizayn və brendlər formasında olan qeyri-maddi kapitalın dəyər zəncirində davamlı artması;
- elmi tədqiqatların rəqabətli və məqsədli maliyyələşdirilməsi mexanizminin yaradılması;
- elmin müxtəlif sahələri üzrə tədqiqatların genişləndirilməsi, beynəlxalq impakt-faktorlu jurnallarda çap olunan məqalələrin sayının artırılması;
- "ömürboyu öyrənmək" mexanizminin yaradılması;
- təhsilalanların rəqəmsal bilik və bacarıq səviyyəsinin yüksəldilməsi;
- elmi tədqiqat, texniki konstruktor işlərinin kommersiyalaşdırılmasına dəstək, tədqiqat nəticələrinin məhsula çevrilməsi və innovasiyaların bazara çatdırılması.

# 7. SİP-in icrasına nəzarət və hesabatlılıq

Hədəflərin həyata keçirilməsi üçün strateji fəaliyyətlər SİP-in Strateji Hədəflər Xəritəsində və qısa və orta müddətli dövr üçün tərtib edilən fəaliyyət planlarında əks olunur. SİP-in həyata keçirilməsinin monitorinqi məqsədilə tədbirlər üzrə ilkin, aralıq və yekun nəticələr müəyyən edilir. Bu hədəflər müvafiq fəaliyyət istiqamətlərinin icra statusunu qiymətləndirməyə imkan verəcəkdir. Baza ili üzrə göstəricilər 2022-ci ilin məlumatlarına əsaslanır. İlkin nəticələr 2023, aralıq nəticələr SİP-in icra olunduğu dövr ərzində 2024 və 2025, 2026-cı illəri, yekun nəticələr isə 2027-cı ili əhatə edir. Nəticələr sistemli ölçüləcək, məqsədlərə nailolunma səviyyəsi, səmərəliliyi, yekun nəticələrin uyğunluğu və davamlılığı müəyyən ediləcəkdir. Bu, SİP-in illik əsasda icra statusunu qiymətləndirməyə imkan verəcəkdir. SİP üzrə monitorinq və qiymətləndirmə vahid metodologiya üzrə aparılır.

## NƏTİCƏLƏRİN ZAMAN ÇƏRÇİVƏSİ

| DÖVR | BAZA İLİ | İLKİN NƏTİCƏLƏR | ARALIQ NƏTİCƏLƏR | | | YEKUN NƏTİCƏLƏR |
|---|---|---|---|---|---|---|
| İL | 2022 | 2023 | 2024 | 2025 | 2026 | 2027 |
| NƏTİCƏLƏR | Baza ili üzrə göstəricilər 2022-ci ilin məlumatlarına əsaslanır. | İlkin nəticələr | Aralıq nəticələr SİP-in icra olunduğu dövr ərzində əhatə edir. | | | Yekun nəticələr |
| ƏHATƏ DAİRƏSİ | | | | | | |

Az 1110, Bakı şəhəri, Nərimanov rayonu, İsa Bulağı 18

info@baau.edu.az

Telefon/Faks: (+994 12) 564-63-67

www.baau.edu.az




# BAKI AVRASİYA UNİVERSİTETİ

## GƏLƏCƏYƏ AÇILAN QAPINIZ

baaueduaz